UOT 75

**Sənan Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**AZ 1029, Bakı, Heydər Əliyev pr.58**
**E-mail**:tzohr.sena@gmail.com

# AĞA MEHDİYEVİN YARADICILIĞINDA PORTRET JANRI

**Xülasə**: Azərbaycan rəngkarlıq məktəbinin yarandığı vaxtdan yerli rəssamların yaradıcılığında portret janrı özünəməxsus yer tutmuş, zaman-zaman bu janr müxtəlif tərzlərdə, hər bir rəssamın fərdi yaradıcılıq xüsusiyyətlərinə əsasən şərh edilmişdir. XXəsr Azərbaycan rəngkarlığının öz sözünü demiş, özünəməxsus təqdimatı və şərhi ilə seçilən aparıcı sənətkarlarından biri olan Ağa Mehdiyev də özünün çoxşaxəli yaradıcılığında bu janra xüsusi önəm vermiş və bir-birindən dəyərli portret örnəkləri yaratmışdır.

**Açar sözlər:**rəngkarlıq, portret janrı, fiziki və mənəvi portretlər.

Ağa Mehdiyevin yaradıcılığına ümumi nəzər saldıqda rəssamın obrazlarının əksər hallarda xalqın içindən seçilmiş sadə əmək adamları, öz doğma kəndinin sakinləri, oğul və qızları, çörək bişirən, paltar asan, ip əyirən qadınları, çobanları, dəmirçiləri və başqaları olduğunu görürük. Bütün bunların əsas qaynağı sənətkarın doğulub boya-başa çatdığı doğma kəndidir. Lahıcda dünyaya göz açmış olan rəssam burada uşaqlığının ən gözəl çağlarını yaşamış, mənəvi tərbiyəyə qovuşmuşdur. Ağa Mehdiyevin rəssam kimi formalaşmasında bu kəndin rolu danılmaz olduğu kimi, sənətkarın portret yaradıcılığı da bu bütünün ayrılmaz bir parçasıdır. Onun hər biri ayrı-ayrılıqda şərhə ehtiyac duyulan portretlərindən anlamaq olur ki, rəssam insanın fiziki xüsusiyyətlərini şərti cizgilərlə təqdim edir.Dəqiq təsvirdən uzaq qaçan ustadın təsvir etdiyi personajların zahiri əlamətləri onların mənəviyyatının, duyğu və həyəcanlarının xəbərçisi olduğu kimi, həmçinin əlavə elementlər qəhrəmanın milli mənsubiyyətini, kimliyini də ortaya çıxarır.

Rəssam yaradıcılığının müxtəlif dövrlərində vaxtaşırı portret janrına müraciət etmişdir. Onun “Astanada” (1979), “Çoban” (1988), “Kəndli qadın” (1983),
“Avtoportret” (1979), “Lahıclı qız” (1980), “Dağlar sahibi” (1985), “Qoca qadın” (1984),

“Kəndli qadın” (1979), “Kolxozçu qadın” (1980), “Qız surəti” (1980), “Qadın surəti” (1977), “Dağlı qadın” (1985), “Qoca kişi başı” (1975), “Uzanmış çoban” (1983), “Çoban portreti” (1982), “Kamançaçalan” (1984)və “İki ay” (1984) əsərlərinin adlarını çəkmək olar.

“Astanada” əsərində lirik qadın obrazı yaradılmışdır. Ağac sütunun arxasından nazəndə boylanan bu xanıma qırmızı libası və ağ örpəyi ayrıca bir füsunkarlıq verir. Arxa fonda yerləşdirilmiş mavi divar fonunda saxsı sürahi təsviri nə qədər xırda detal kimi görünsə də, məsələnin daha dərinliklərinə daldıqda görürük ki, bu kiçik element həm tabloya milli ruh qazandırır, həm də Azərbaycan xalqının uzun əsrlərə söykənən dulusçuluq sənəti ənənələrinin simvolu kimi çıxış edir. Kənd xanımlarını təsvir etdiyi daha bir əsəri olan “Kəndli qadın” portreti rəssamın cizgilərdə dəqiqliyə bir o qədər də önəm vermədiyinin, əsəri yaradarkən əsas amalın personajı Azərbaycan millətinin əsl nümayəndəsi kimi təqdim etmək olduğunun uğurlu bir örnəyidir. Bu əsərdə də bəyaz örpəyə bürünmüş xanım təsvir edilmişdir. Sözü gedən örpəyi nəzərə almasaq əsərin bütününə tünd və ağır tonlar hakimdir, belə düşünmək olar ki, Ağa Mehdiyev bu ağırlığı nahaq yerə əsərə əlavə etməmişdir, burada kiçik bir intizar duyğusunun hökm sürdüyünü də söyləmək olar.

Yaradıcılığı xanım obrazları ilə zəngin olan rəssamın "Lahıclı qız" portreti rəng keçidlərindəki harmoniya və uyum, koloritin zənginliyi və rəng tonlarının təyinindəki incəliyi ilə diqqəti cəlb edir. Tabloda əllərini sinəsində çarpazlamış, izləyiciyə deyil, bir qədər çəp istiqamətdə baxan, sarı və qırmızı milli geyimdə, ağ örpəkli, şux qamətli, məğrur, həmçinin də gülərüz bir xanımın təsviri yaradılmışdır. Qırmızı damlı kənd evləri, dağlar və ağaclardan ibarət yaşıl mənzərə təsvir üçün fon rolunu oynayır. Sənətkarın çox janrlı yaradıcılığına ümumi nəzər yetirdikdə də görə bilərik ki, o əsas personajlar üçün fon qismində, adətən, ya sadə, bəzəksiz, lakin kiçik elementlərlə zənginləşən interyerləri, ya da kənd mənzərələrini seçirdi. Bunun səbəbi ilk növbədə doğma yurda bağlılıq və əsərlərin xəlqiləşdirilməsi sayıla bilər, lakin bu təsvir üsulu ilə rəssam həm də on planda təsvir etdiyi mərkəzi obrazları daha da on plana çıxarmış olurdu. "Lahıclı qız" portretində diqqəti çəkən daha bir məqam işıq mənbəyinin seçimi və onun yaratdığı kölgələr ardıcıllığı ilə bağlıdır. Rəssam mürəkkəb keçidlərdən uzaqdır, xüsusilə xanımın sifətinə düşən işıq və örpəyin kölgəsi bir-birindən aydın sezilən xətlə ayrılır.

Ağa Mehdiyevin yaradıcılığına xas olan şərtilik və səthilik onun "Kolxozçu qadın", "Qız surəti" və "Qadın surəti" əsərində daha qabarıq şəkildə özünü göstərir. Birinci tabloda ağacın altında əyləşib dincələn sadə geyimli, başı örpəkli bir xanım təsvir olunmuşdur. Nə arxa fon, nə xanımın geyimi və üz cizgiləri aydın deyil. Əsər fırçanın qərarsız toxunuşları və rənglərin nizamsız düzülüşü kimi görünsə də əslində bu nizamsızlığın özündə də bir qanunauyğunluq vardır. "Qız surəti" əsəri isə izləyicidə soyuq əhval-ruhiyyə yaradır. Dalğın gözləri, rənglərin solğun tonlarında təqdim edilmiş üz cizgiləri, əyri xətlərdən daha artıq düz cizgilərə meyllilik bu əsərə xas olan xüsusiyyətlərdir.

Rəssamın "Yaşlı kişi başı" və "Dağlı qadın" portretləri ciddiliyi, sərt cizgilərə sahib olması, düzgünlüyü və statikliyi ilə fərqlənir. He iki əsərdə rəngarəng mənzərəli fondan istifadə olunmuşdur - "Dağlı qadın"ın arxasında sıra-sıra dağlar uzanıb gedir, yaşlı kişi isə meşə sahəsini andıran qarışıq rənglərdə bitki örtüyünün fonunda təsvir edilib. Obrazların hər ikisinin çatılmış qaşlara, kəskin sifət cizgilərinə və üz ifadələrində

ciddiyyətə sahib olması çəkilmə vaxtları arasında on il fərq olmasına baxmayaraq tabloları bir-birinə bənzər edir.

Ağa Mehdiyevin xanımlara həsr edilmiş portretləri arasında "İki ay" əsərini məxsusi olaraq qeyd etmək lazımdır, çünki bu əsər həm Ağa Mehdiyevin başqa əsərlərinə nisbətən forma dəqiqliyinə malikdir, həm də bu əsərin olduqca böyük lirik-romantik ab- havası vardır. Əsərin şərhinə ilk olaraq adı ilə başlamaq olar, rəssam qaranlıq gecədə hər tərəfi ayaza qərq edən parlaq və dolğun bir Ay fonunda ən az Ay qədər nur üzlü, Ay bənizli bir gözəl xanım təsvir etmişdir. Əsərin o qədər də zəngin olmayan rəng koloritinə malik olmasına baxmayaraq formalar o qədər həzin və axıcıdır ki, insan bir anlıq bu xanımın həqiqət olduğunu düşünür, deyilsə belə olmasını arzulayır.

Rəssamın əmək adamlarına həsr edilmiş əsərləri içərisində çoban obrazının yaradıldığı çoxsaylı portretlər vardır. “Dağlar sahibi”, “Çoban portreti”, “Uzanmış çoban”, “Çoban” kimi portretləri rəssamın özünəməxsus dəsti-xəttinin xəbərçisidir. “Çoban” portretində əlində çomağı ilə çoban obrazı yaradılmışdır. Bu tablo təsvirə sınıq xətlərlə verilmiş rəngarəng fonu ilə rəssamın başqa əsərlərindən fərqlənir. “Dağlar sahibi”əsəri birinci əsərə nisbətən daha real təsir bağışlayır. Burada da çoban çiyinlərinə saldığı yapıncısı, başında börkü və iki əli ilə söykəndiyi çomağı ilə təsvir edilmişdir. Obrazın arxasında uzanıb gedən, ucu-bucağı görünməyən dağlar müxtəlif rəng çalarlarına bürünür, seyr etdikcə uzaqlara doğru gedən bu dağlar rəssamın əsərə verdiyi ad üçün də ilham qaynağı olmuşdur.

Rəssamın portret yaradıcılığında 1979-cu ildə işlədiyi “Avtoportret”inin də ayrıca yeri vardır. Səthi cizgilərdən istifadə olunmasına baxmayaraq kifayət qədər natural təsir bağışlayan bu əsərdə rəssam özünün boyundan yuxarı portretini yaratmışdır. Ağ saçlı, çatma qaşlı kişi obrazının baxışlarından, sifət cizgilərindən bu insanın yaradıcı ruha, sənətkar kimliyinə malik olması hiss olunur. Rəng şkalası o qədər də geniş olmayan tablonun bundan fərqli olaraq rəng keçidləri kifayət qədər mürəkkəbdir.

Azərbaycanda rəngarlıq sənəti formalaşdığı vaxtdan etibarən müxtəlif rəssamların yaradıcılığında milli ənənələr əsasında portret janrına müraciət müşayiət olunur. Bunlar arasında Ağa Mehdiyevin yaratmış olduğu tablolar personajların fiziki xüsusiyyətlərinin onların daxili aləminin xəbərçisi kimi təqdim edilməsi, dəqiq təsvirdən daha çox səthi şəkildə təqdimata üstünlük verilməsi ilə fərqlənir. Rəssam portret əsərlərində daha çox zəhmətkeş kütlənin, xalqdan olan sadə əmək adamlarının surətlərinin yaradılmasına diqqət yetirirdi.

**Ədəbiyyat:**


1. Quliyev Ə. Milli ruhlu rəssam // Mədəniyyət, 2015, 16 dekabr, s.15.
2. Vəliyev K. Təbiət və həyat rənglərin ecazkar aləmində // Mədəniyyət, 2014, 6 avqust, s. 12.
3. Soltanlı S. Sadə və isti rənglər ustası // Mədəniyyət, 2015, 2 oktyabr, s.15.
4. Litvin M.D. İzomaterial: Ağa Mehdiyev. Bakı: İşıq, 1990, 104 s.
5. http://qgallery.net/paintings/aga-mehdiyev/
6. http://anl.az/down/meqale/xalqcebhesi/2012/iyun/25.htm

**Сенан Агаев**

## Портретный жанр в творчестве Аги МехдиеваРезюме

С момента формирования азербайджанской живописи, в творчестве различных художников мы можем наблюдать наличие портретного жанра, построенного на национальных традициях. Также и картины, созданные кистью Аги Мехдиева отличаются передачей внутреннего мира героев посредством физических особенностей этого персонажа, а также преобладанием поверхностного изображения над детальным рисунком. Большое внимание художник уделял созданию образов трудолюбивых народных масс и простых рабочих людей, вышедших из народа.

**Ключевые слова:**живопись, портретный жанр, физические и духовные портреты.

**Sanan Agayev**

## Portrait genre in the Aga Mehdiyev's worksSummary

Since the formation of Azerbaijani painting, in the works of various artists, we can observe the presence of a portrait genre built on national traditions. Also, the paintings created by Agi Mehdiyev's brush are distinguished by the transfer of the inner world of the characters through the physical features of this character, as well as the predominance of the surface image over the detailed drawing. The artist paid much attention to creating images of industrious masses of the people and ordinary workers who left the people.

**Keywords:** painting, portrait genre, physical and spiritual portraits.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.10.2018Məqalənin çapa qəbul olunma tarixi: 28.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**